1_Layout 1 13.12.2018 17:40 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 24 (540)

15 dekabr 2018-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT EDİB

***Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın Milli Lideri Heydər Əliyevin vəfatından 15 il keçdi.***



AZƏRTAC xəbər verir ki, dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailə üzvləri Fəxri Xiyabana gələrək xalqımızın Milli Lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri Xiyabana gəlmişdilər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın Dövlət Himni səsləndi.

Dövlətimizin başçısı İlham Əliyev və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Milli Lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Novruz Məmmədov, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

Azərbaycanın ən yeni tarixinin bütöv qərinəsi Heydər Əliyevin adı ilə bağlıdır. Qeyri-adi şəxsiyyəti, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən, xarizmatik lider olan Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. 1969-cu ildə respublka rəhbərliyinə gələn Heydər Əliyev, əslində, sosial-iqtisadi böhran keçirən Azərbaycanı 1970-1980-ci illərdə keçmiş İttifaqın ən qabaqcıl respublikalarından biri səviyyəsinə çıxarmışdı. Tədqiqatçılar haqlı olaraq vurğulayırlar ki, müasir mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi məhz həmin illərdə təməli qoyulmuş potensiala əsaslanır.

1993-cü ilin yayında, müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın taleyinin Tanrının ümidinə qaldığı bir vaxtda xalq özünün və ölkənin gələcəyini Heydər Əliyevə etibar etdi. Bu, böyük Qayıdış idi və Ulu Öndər müdrikliyi, zəngin siyasi və dövlətçilik təcrübəsi, sarsılmaz qətiyyəti, yenilməz iradəsi sayəsində ölkəni, xalqı, gənc müstəqil dövləti labüd fəlakətlərdən qurtardı. Qədirbilən Azərbaycan xalqı dahi oğlunun bu əvəzsiz xidmətlərini heç vaxt unutmur.

Azərbaycan dövlətçiliyinin xilaskarı, Türk dünyasının böyük oğlu Heydər Əliyevin vəfatından ötən illər ərzində görkəmli şəxsiyyətin, əbədiyaşar Prezidentimizin məzarı xalqımızın müqəddəs ziyarətgahına, gənclərin and yerinə çevrilib. Bütün il boyu in-sanlar buraya gəlir, xalqımızı, Azərbaycanı dünyaya tanıdan, özü də dünyanın görkəmli şəxsiyyətlərindən biri kmi tanınan böyük azərbaycanlının xatirəsinə ehtiramlarını ifadə edirlər.

**Azərbaycanın dahi oğlu Heydər Əliyevin əbədiyyətə qovuşmasının 15-ci ildönümü günü – dekabrın 12-də paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nümayəndələri, xarici ölkələrdən gəlmiş qonaqlar Fəxri Xiyabanda xalqımızın Milli Liderinin xatirəsini dərin ehtiramla yad edir, onun məzarı önünə əklillər, gül dəstələri qoyur, müdrik dövlət xadiminə Allahdan rəhmət diləyirlər.**

## AZƏRBAYCAN RESPUBLİKASI VƏTƏNDAŞLARININ 2019-cu İL YANVARIN 1-dən 30-dək MÜDDƏTLİ HƏQİQİ HƏRBİ XİDMƏTƏ ÇAĞIRILMASI VƏ MÜDDƏTLİ HƏQİQİ HƏRBİ XİDMƏT HƏRBİ QULLUQÇULARININ EHTİYATA BURAXILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

## SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə qərara alıram:

1. 2001-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1984–2000-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2019-cu il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2019-cu il yanvarın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 26 noyabr 2018-ci il.

## DAXİLİ QOŞUNLARIN BAŞ İDARƏSİNDƏ MİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANIM MƏRASİMİ KEÇİRİLİB



Bu günlərdə ölkəmizin hər yerində dünyanın nadir şəxsiyyətləri ilə bir sırada dayanan, Azərbaycan dövlətinin xilaskarı və qurucusu, dahi insan, Milli Lider Heydər Əliyevin əziz xatirəsi böyük ehtiram hissi ilə anılır.

Bununla əlaqədar, dekabrın 8-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Baş İdarəsində Ulu Öndər Heydər Əliyevin anım mərasimi keçirilib. Mərasimdə millət vəkili Elman Nəsirov iştirak edib.

Tədbir Ulu Öndərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb, Dövlət Himni ifa edilib.

Qeyd olunub ki, Azərbaycan xalqının tarixində və taleyüklü məsələlərin həllində tarixi şəxsiyyət, Azərbaycan xalqının Milli Lideri adını qazanmış, görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi Heydər Əliyevin müstəsna xidmətləri vardır. Bu dahi insan Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, Milli Lider və xalq məhəbbətini qazanan öndər kimi qalıb. Xalqımızın taleyində, mənəvi, siyasi və ictimai həyatında, dövlət quruculuğunda onun qədər misilsiz xidmətlər göstərən ikinci dövlət adamı tapmaq mümkün deyildir. Bu mənada o, xalqımızın milli iftixarı, ürəklərimizdə özünə yer tapan Milli Liderimiz, güvənc yerimiz, qürur duyduğumuz və arxa bildiyimiz böyük azərbaycanlı idi.

Tədbirdə Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən film nümayiş etdirilib.

Sonra “Heydər Əliyev müasir Azərbaycanın banisidir” mövzusunda çıxış üçün millət vəkili Elman Nəsirova söz verilib.

O, Azərbaycan xalqının müdrik oğlu, qətiyyəti ilə heyranlıq doğuran, yenilməz iradə sahibi Heydər Əliyevin gənc, müstəqil dövlətimizi labüd fəlakətlərdən qurtaran dahi şəxsiyyət olduğunu diqqətə çatdırıb. Milli Liderin xalq, Vətən, dövlət və dövlətçilik uğrunda əvəzsiz xidmətlərindən bəhs edən millət vəkili qeyd edib ki, Ulu Öndər Heydər Əliyev bizdən cismən ayrılsa da, onun dövləti, xalqı qarşısındakı misilsiz xidmətləri heç vaxt unudulmur. Əminliklə demək olar ki, Milli Lider, sözün əsl mənasında, ümumxalq sevgisini qazanan nadir siyasətçilərdəndir.

Millət vəkili onu da xüsusilə vurğulayıb ki, müstəqil Azərbaycanın zamanın ağır və çətin sınağından çıxarılaraq dünyada tanınan nüfuzlu bir dövlətə çevrilməsi məhz Milli Lider Heydər Əliyevin müdrik və uzaqgörən siyasətinin nəticəsidir. Onun ürəklərdə yaratdığı məhəbbət alovu bir an olsun belə sönməyib. Hər bir azərbaycanlının Heydər Əliyevə olan sonsuz hörməti, ehtiramı və sevgisi bunun əyani sübutudur. Heydər Əliyev 15 il öncə canından çox sevdiyi, uğrunda özünü fəda etdiyi torpağa qovuşsa da, xalqımız onun əziz xatirəsini hər an qəlbində sevgilə yaşadır.

Tədbirin sonunda bir daha Milli Lider Heydər Əliyevin əsasını qoyduğu siyasi irsin bu günümüz və gələcəyimiz üçün böyük əhəmiyyəti vurğulanıb, Ulu Öndərin layiqli davamçısı, Heydər Əliyev siyasi məktəbinin yetirməsi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin daha da qüdrətlənəcəyinə, dünyada ən inkişaf etmiş dövlətlərdən birinə çevriləcəyinə əminlik ifadə olunub.

## DAXİLİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

***Azərbaycan Respublikasının Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov dekabrın 11-də ölkəmizdə səfərdə olan İran İslam Respublikasının Sərhəd Qoşunlarının Komandanı Qasım Rzayinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***



Qonaqları salamlayan nazir xalqlarımız arasında çoxəsrlik tarixi, mədəni, dini yaxınlığın mövcudluğunu, təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş möhkəm dostluq və qonşuluq münasibətlərinin dövlət başçılarının qarşılıqlı səfərləri, aparılan danışıqlar və imzalanmış sənədlər nəticəsində keyfiyyətcə yeni səviyyəyə yüksəldiyini, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həmin siyasətin də uğurla davam etdirildiyini nəzərə çatdırıb, iki ölkənin münasibətlərinin səmimi dostluq və strateji tərəfdaşlıq xarakteri daşımasının xalqlarımızın və dövlətlərimizin həyati mənafelərinə uyğun olduğunu vurğulayıb.

Bu ilin sentyabr ayında qonşu ölkəyə rəsmi səfərini, bu çərçivədə İran İslam Respublikasının yüksək vəzifəli dövlət rəsmiləri, o cümlədən cənab Qasım Rzayi ilə görüşləri məmnunluqla xatırladan general-polkovnik R.Usubov belə görüşlərin ümumən cinayətkarlıq və beynəlxalq terrorizmlə mübarizədə səylərimizin birləşdirilməsi üçün geniş imkanlar yaratdığını, qlobal xarakter almış transmilli mütəşəkkil cinayətkarlığın təhlükəli növlərinə, xüsusən terrorizmə və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə əməkdaşlığın böyük potensiala malik olduğunu qeyd edib.

Nazir R.Usubov son illər vətəndaşlarımızın gediş-gəlişlərinin artması, eləcə də turizmin inkişafı ilə əlaqədar hər iki ölkədə əmin-amanlığın, ictimai təhlükəsizliyin yüksək səviyyədə təmin olunmasında birgə səylərin bundan sonra da davam etdirilməsinin vacibliyini nəzərə çatdırıb.

Daha sonra qonaqlara Azərbaycandakı mövcud kriminogen vəziyyət haqqında qısa məlumat verilib. Respublikamızda dövlət müstəqilliyinin, demokratik prinsiplərin möhkəmləndirilməsi, ictimai münasibətlərin hüquqi tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi sahəsində görülən işlər diqqətə çatdırılıb və qeyd olunub ki, hüquq-mühafizə orqanları sıx, qarşılıqlı əlaqədə cinayətkarlığa, o cümlədən mütəşəkkil cinayətkarlığa qarşı kompleks tədbirlər həyata keçirirlər.

Cənab Qasım Rzayi səmimi qəbula, xoş sözlərə və ətraflı məlumata görə minnətdarlığını bildirib. O, regionda qeyri-stabilliyin, terrorun və ekstremizmin hökm sürməsi fonunda hər iki ölkədə sabitliyin, əmin-amanlığın təmin edilməsinin, transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində məlumat və təcrübə mübadiləsinin bölgədəki təhlükəsizliyə müsbət təsir göstərəcəyini qeyd edib, İranın hüquq-mühafizə orqanlarının azərbaycanlı həmkarları ilə əməkdaşlığın daha da dərinləşdirilməsinə böyük önəm verdiyini vurğulayıb.

Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə edilib.

İran İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Cavad Cahangirzadə qəbulda iştirak edib.

# Silahlı Qüvvələr veteranı vəsiqələrinin təqdim olunması mərasimi keçirilib

Azərbaycan Respublikası Silahlı Qüvvələri və qanunvericilikdə nəzərdə tutulmuş digər qoşun növlərində 25 il qüsursuz hərbi xidmət keçmiş hərbi qulluqçulara Silahlı Qüvvələr veteranı adı verilir və bununla əlaqədar təsis olunmuş "Azərbaycan Respublikası Silahlı Qüvvələri veteranı" medalı təqdim edilir. Qeyd edək ki Silahlı Qüvvələr veteranı adının və medalının təqdim olunması ənənəsi bir çox ölkənin ordularında mövcuddur. Bu müsbət ənənə uzun illər ləyaqətlə xidmət edərək, hərbi anda sadiq qalan, hərbçi şərəfini uca tutan, sıralarında olduğu ordunun, qoşun növünün inkişafına, döyüş potensialının möhkəmlənməsinə layiqli töhfələr verən, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsində əzmkarlıq göstərən hərbi qulluqçuların əməyinin qiymətləndirilməsi baxımından hərbi kollektivlərin həyatında böyük tərbiyəvi rol oynayır. Ümumilikdə, sıralarında veteranların olması hər bir hərbi kollektiv üçün qürur doğuran amildir. Veteranlar həyatının böyük bir hissəsini hərbi xidmətə həsr etmiş və çətin sınaqlardan keçmiş şəxslərdir. Onlara hörmət və ehtiram göstərilməsi hərbi xidmətin nüfuzunun qorunması nöqteyi-nəzərdən də vacibdir.



Təqdirəlayiq haldır ki, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında da veteranlarla bağlı müsbət ənənələr yaşadılır və bu sahədə reallaşdırılan tədbirlər komandanlığın diqqət mərkəzindədir. Bu gün Daxili Qoşunların sıralarında müharibə və Silahlı Qüvvələr veteranları olan hərbi qulluqçular xidmət edirlər. Həmçinin, bu kateqoriyadan olan hərbi qulluqçularımızın böyük bir qismi ötən illərdə qoşunların sıralarından ehtiyata buraxılıb.

Dekabrın 7-də 25031 saylı hərbi hissədə Daxili Qoşunların ehtiyatda olan Silahlı Qüvvələr veteranlarının bir qrupuna "Azərbaycan Respublikası Silahlı Qüvvələri veteranı" vəsiqəsinin təqdim olunması mərasimi keçirildi. Mərasimdə Daxili Qoşunların Veteranlar Şurasının üzvləri də iştirak edirdilər. Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov mərasimi açaraq, veteranları salamladı. O, bildirdi ki, Daxili Qoşunlarda ilk dəfə olaraq, Silahlı Qüvvələr veteranı rəsmi vəsiqəsinin verilməsinə başlanılıb. Bu məsələ ilə bağlı Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov tərəfindən müvafiq əmr imzalanıb.

General-leytenant Ş.Məmmədov qeyd etdi ki, Silahlı Qüvvələr veteranı vəsiqələrinin ilk olaraq ehtiyatda olan veteranlara təqdim olunmasına qərar verilib. Bu addım qoşunların formalaşması və inkişafına onların verdiyi töhfənin qiymətləndirilməsinin təzahürüdür, bütövlükdə, veteranlara dərin hörmət nümunəsidir. O, nəzərə çatdırdı ki, vəsiqələrin təqdim olunacağı veteranlar bununla bağlı ərizə ilə müraciət ediblər. Müraciətlər daxil olduqca, bu proses davam etdiriləcək. Ona görə də aidiyyəti kateqoriyadan olan veteranlar Veteranlar Şurası tərəfindən məlumatlandırılmalıdır.

Sonra Daxili Qoşunların Baş İdarəsinin Şəxsi heyət üzrə İdarəsində kadrlar şöbəsi rəisinin müavini polkovnik-leytenant Elçin Məmişov Daxili Qoşunlar Komandanının müvafiq əmrini elan etdi.

Daxili Qoşunların Komandanı əmrdə adları qeyd olunan veteranlara Silahlı Qüvvələr veteranı vəsiqələrini təqdim etdi. O, veteranları Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların Komandanlığı adından təbrik edərək, xoş arzularını bildirdi. Xüsusi vurğuladı ki, bu kimi xoşməramlı tədbirlərin davam etdirilməsi vacibdir. Yaxın müddətdə veteranlarla geniş tərkibdə görüşün təşkilinə dair göstəriş verən general-leytenant Ş.Məmmədov komandanlıqla veteranlar arasında əlaqələrin qurulmasında Daxili Qoşunların Veteranlar Şurasının vacib rolunu nəzərə çatdırdı.

General-leytenant Ş.Məmmədov öz çıxışında qoşunların həyatında baş verən yeniliklərdən, ayrı-ayrı xidmət sahələri üzrə əldə olunan nailiyyətlərdən, hərbi hissələrimizin inkişafından, bununla yanaşı, şəxsi heyətlə iş prosesində komandanlığı narahat edən bəzi məqamlardan da danışdı.

Daxili Qoşunların Komandanı, ümumilikdə, hərbi qulluqçularımızın dövlətçiliyimizə sədaqətlə xidmət etdiyini, Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunlara diqqət və qayğısının şəxsi heyətə böyük ruhlandırıcı təsir göstərdiyini vurğuladı.

O, mərasim iştirakçılarını Bakıda Şəhidlər Xiyabanındakı şəhid hərbi qulluqçularımızın qardaşlıq məzarı üzərində olan abidənin yenilənməsi üçün aparılan işlər, şəhid olmuş və itkin düşmüş hərbi qulluqçularımızın müvafiq siyahılarının dəqiqləşdirilməsi yönündə görülən geniş tədbirlər barədə də məlumatlandırdı.

Daha sonra general-leytenant Ş.Məmmədov veteranların müraciətlərini dinlədi, onlar tərəfindən qaldırılan məsələlər barədə aidiyyəti vəzifəli şəxslərə müvafiq tapşırıqlar verdi.

Tədbirin sonunda veteranlarla xatirə şəkli çəkdirildi.

**Yalçın Abbasov**

# HƏRBİ OBYEKTLƏR ETİBARLI ŞƏKİLDƏ MÜHAFİZƏ OLUNUR

**Hərbi hissənin, döyüş bayrağının və dövlət obyektlərinin etibarlı mühafizəsi komendant bölüyünün hərbi qulluqçularının əsas vəzifələridir. Bu baxımdan qarşıya qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsi, hərbi intizamın möhkəmləndirilməsi, xidməti-döyüş fəaliyyətinin düzgün şəkildə təşkil edilməsi olduqca vacibdir.**



Ali Hərbi Məktəbin komendant bölüyü döyüş bayrağının, anbarların mühafizəsi və müdafiəsi üçün döyüş xidməti aparan bölmədir. Artıq əminliklə deyə bilərik ki, bölüyün şəxsi heyəti hər zaman olduğu kimi, bu gün də döyüş tapşırıqlarının yerinə yetirilməsində yüksək peşəkarlıq nümayiş etdirir.

Hazırda bölük komandirinin vəzifəsini müvəqqəti icra edən baş leytenant Həsən Allahverdiyev xidmətin təşkili və bununla əlaqədar hərbi qulluqçularla aparılan profilaktik tədbirləri təfsilatı ilə diqqətimizə çatdıraraq bildirdi ki, komendant bölüyündə xidmət müvafiq postlarda aparılır.



Qarovul nəfərlərinin seçilməsində bir sıra vacib amillərə xüsusi diqqətin yetirildiyini deyən baş leytenant H.Allahverdiyev xidmət öncəsi tərbiyə bölməsində təlimatçı-psixoloq Mərifət Məmmədova tərəfindən döyüş xidmətinə cəlb olunan hərbi qulluqçularla psixoloji söhbətlərin aparıldığını nəzərimizə çatdırdı. Mütəmadi olaraq aparılan bu söhbətlərin əsası psixoloji durumunda, əhval-ruhiyyəsində problemi olan hərbi qulluqçuların aşkarlanaraq xidmətdən uzaqlaşdırılmasından ibarətdir. Qarovul xidmətinə cəlb edilən əsgərlərlə aparılan söhbət zamanı narahat olan hərbi qulluqçu müşahidə edilməzsə, onların səhhəti, ailəsi, xidmətə münasibətləri ilə maraqlanılır, mənəvi-psixoloji cəhətdən tam hazırlıqlı olduqları müəyyənləşdirilir, hər birinin xarakterik xüsusiyyətləri və fərdi psixoloji keyfiyyətləri analiz edilir.

Sadalanan xüsusiyyətlərlə yanaşı, o, xidmətə cəlb olunan şəxsi heyətin atəş və fiziki hazırlığının da diqqət mərkəzində saxlanıldığını və bu məqsədlə mütəmadi olaraq praktiki atışların keçirildiyini xüsusilə vurğuladı. Saatdar tərəfindən tələb olunduqda silahın düzgün ardıcıllıqla, nizamnamə tələblərinə uyğun tətbiqetmə bacarığının aşılanması bu təlimlərdə əsas məqsəd kimi qarşıya qoyulur. Təlim və məşğələlərdə kifayət qədər fiziki güc, eləcə də bilik əldə edən əsgər postda olarkən daha ayıq-sayıq, daha çevik, daha hazırlıqlı olur, nəticə etibarilə, həvalə olunmuş obyektin mühafizəsini qüsursuz olaraq yerinə yetirir. Saatdarların vaxtlı-vaxtında dəyişilməsi ilə yanaşı, silahın doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunur. Şəxsi heyətə yerinə yetirdikləri döyüş xidmətinin əhəmiyyəti izah edilərək, hər bir hərbi qulluqçudan Qarovul və Qarnizon Xidmətləri Nizamnaməsinə ciddi riayət etməsi tələb olunur.

Keçirilən idman təlimləri isə hərbi qulluqçularda əzmkarlıq, dözümlülük, ayıq-sayıqlıq kimi xüsusiyyətlərin formalaşmasına böyük təkan verir. Xidmət zamanı postlarda saatdarların ayıq-sayıq xidmət aparmasına, döyüş hesabatının vaxtlı-vaxtında çatdırılmasına, tərbiyə işinin təşkilinə, səliqə-sahmana riayət olunur. Bütün bunlarla yanaşı, əsgərlərin asudə vaxtlarının səmərəli təşkili üçün müxtəlif növ ədəbiyyatların mütaliə olunması, stolüstü oyunların oynanılması da nəzərdən qaçmayan məsələlərdəndir.

Komendant bölüyündə xidmətin çətin, lakin şərəfli olduğunu, hərbi qulluqçulardan yüksək intizam tələb etdiyini söyləyən baş leytenant H.Allahverdiyev xidmətin uğurlu təşkilində qarovul rəisi baş çavuş Ramil Dənziyevin əməyini yüksək qiymətləndirdi. Həmçinin, qarovul rəisinin köməkçisi çavuş Cavid Xəlilov, əsgərlər Gündüz Arifzadə, Səxavət Dadaşzadə, Nasir Bayramov xidmətin fəalları kimi seçilirlər.

**baş leytenant Nigar Ağayeva**

## idman

# HƏRBİ QULLUQÇULARIMIZ YENİDƏN FƏXRİ KÜRSÜDƏ...

***Daxili Qoşunların İdman Komandası iştirak etdiyi beynəlxalq və yerli yarışlarda mütləq qaydada nailiyyətlər əldə edir. Bu uğurlar artıq ənənə halını alıb desək, yanılmarıq.***

Növbəti qələbə sevincini bizə Gürcüstanda keçirilən beynəlxalq turnirdə iştirak edən hərbi qulluqçumuz baş leytenant Ruslan Lunev yaşatdı. Noyabr ayının



18-dən 24-nə kimi təşkil olunmuş turnirdə ölkəmizi uğurla təmsil edən dünya şöhrətli idmançı, Daxili Qoşunların İdman Komandasında məşqçi-müəllim baş leytenant R.Lunev 10 metr məsafəyə güllə atıcılığı növündə birinciliyi qazanıb. Uğurlu yarışların sayı-hesabı olmayan hərbi qulluqçumuz güllə atıcılığı növündə idman ustası, beynəlxalq turnirlərin qızıl medalçısıdır. Belə ki, o, IV İslam Həmrəyliyi Oyunları zamanı pnev-



motik tapança ilə atəşaçmanın bütün təsnifatları üzrə rəqiblərini üstələyərək 5 qızıl medala sahiblənib. Respublikanın tanınmış idmançısı İradə Aşumovanın oğlu, eyni zamanda, onun davamçısı olan Ruslan İslamiadada bu sayda qızıl medala layiq görülən yeganə idmançı kimi adını tarixə yazdırıb.

* * *

Daxili Qoşunların İdman Komandasının digər bir uğurlu idman çıxışı müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Sərxan Quluzadənin adı ilə bağlıdır. Noyabrın 23-dən 25-nə kimi Bakı şəhərində keçirilən respublika çempionatında karatenin şotokan idman növündə 84 kq çəki dərəcəsində finala vəsiqə qazanan əsgərimiz üçüncü yerlə kifayətlənib. İlk üçlükdə qərarlaşan S.Quluzadə 2018-ci ilin iyul ayının 27-dən Daxili Qoşunlarda həqiqi hərbi xidmətə qəbul olunub, avqust ayının 18-dən bu günədək Daxili Qoşunların İdman Komandasında müddətli həqiqi hərbi xidmətini davam etdirir. Xatırladaq ki, o, dəfələrlə respublika çempionu, bir dəfə dünya və Avropa çempionu adını qazanıb.

1996-cı il aprel ayının 16-da Bakı şəhərində dünyaya gələn əsgər S.Quluzadə ali təhsillidir, idman ustası və dünya kubokunun sahibidir.

* * *

Bundan əlavə, daxili işlər orqan və hissələri arasında idmanın sərbəst güləş növü üzrə şəxsi və komanda birinciliyi uğrunda keçirilən yarışda Daxili Qoşunları 9 idmançı və 1 nümayəndə təmsil edib. Turnirdə şəxsi birincilikdə bütün rəqiblərini üstələyən baş çavuş Eldar Məmmədov (99713 saylı hərbi hissə, 66 kq.), çavuş Elvin Dövlətov (99713 saylı hərbi hissə, 74 kq.), çavuş Əli Bayramov (99713 saylı hərbi his-sə, 84 kq.), baş leytenant Nadir Şərifov (16075 saylı hərbi hissə, 70 kq.) 1-ci yerə, baş çavuş Nurlan Orucov (Təlim Mərkəzi, 70 kq.) isə 2-ci yerə layiq görülüblər.

Ümumilikdə, Daxili Qoşunların yığma komandası I yeri tutub.

* * *

İdman Komandamızın hərbi qulluqçularının əldə etdiyi nailiyyətlər sırasına daha biri əlavə olunub. Belə ki, noyabr ayının 26-dan dekabrın 1-dək idmanın boks növü üzrə respublika çempionatı keçirilib. Yarışda daxili işlər orqanlarının əməkdaşları ilə yanaşı, Daxili Qoşunların İdman Komandasının iki hərbi qulluqçusu da öz qüvvəsini sınayıb. Əsgər Məsud Yusifzadə (52 kq.) və əsgər Kamran Şahsuvarlı (75 kq.) keçirdikləri hər dörd görüşdə rəqiblərini üstələyərək 1-ci yeri tutublar. Fəxri kürsünün ən yüksək zirvəsini fəth edən hərbi qulluqçularımız medal, diplom və kubokla mükafatlandırılıblar.



Məlumat üçün qeyd edək ki, idmançılarımızın təlim-məşq toplanışları İdman Komandasında təlimatçı gizir Vüsal Gözəlovun rəhbərliyi ilə keçirilib.

İnanırıq ki, idmançı silahdaşlarımız bundan sonra da öz qələbələri ilə bizləri sevindirəcək və beynəlxalq yarış və turnirlərdə Dövlət Himnimizi səsləndirərək, üçrəngli bayrağımızı yüksək zirvələrə qaldıracaqlar.

Hərbi qulluqçularımızı təbrik edir, nailiyyətlərinin davamlı olmasını arzulayırıq.

**kapitan Teymur Əlizadə**
**baş leytenant Nigar Ağayeva**

3_Layout 1 14.12.2018 8:27 Page 1



*Şəhidlərimiz*

# YENİLMƏZ DÖYÜŞÇÜ KİMİ QƏLBLƏRDƏ YAŞAYACAQ...

***Azərbaycan tarixinin şanlı səhifələrindən biri də bugünkü və gələcək nəsillərə örnək olan Vətənin igid oğullarının respublikamızın ərazi bütövlüyü uğrunda keçdiyi döyüş yoludur. Adlarını qanları ilə hərb tariximizin qəhrəmanlıq salnaməsinə yazan bu oğulları hər kəsə tanıtmaq vətənpərvərlik borcumuzdur.***

***Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçərək şəhidlik zirvəsinə yüksələn igid oğullarımızdan biri də Daxili Qoşunların cəsur hərbi qulluqçusu əsgər Famil Kamil oğlu Rəcəbovdur.***



ŞƏHİD FAMİL RƏCƏBOV

Əsgər Famil Rəcəbov 1973-cü il iyun ayının 5-də Şəki rayonunun Baş Göynük kəndində dünyaya göz açıb. Atası Kamil kişinin və Nəzakət ananın halal zəhmətlə böyüdüb tərbiyə etdiyi 4 övladdan (Dönməz, Famil, Sevinc və Aygün) biri, eyni zamanda ailənin ikinci və sevimlisi idi Famil. 1990-cı ildə doğma Baş Göynük kənd orta məktəbini bitirdikdən sonra Bakı şəhərindəki Yeyinti Sənaye Texnikumunda təhsilini davam etdirib.

Lakin digər həmyaşıdları kimi, Familin də həyatının ən gözəl - yeniyetməlik və gənclik çağları respublikamızın ağır və təlatümlü dövrünə təsadüf edib. Üzdəniraq qonşularımızın Qarabağ və digər həmsərhəd rayonlarımızda dinc əhaliyə, xüsusilə də uşaqlara, qadınlara və qocalara qarşı törətdikləri vəhşiliklər Familin erməni daşnaklarına olan qəzəb və nifrətini aşıb-daşdırırdı. Ona görə də oxuduğu orta ixtisas təhsil müəssisəsini yarımçıq qoyub, könüllü olaraq Vətənin müdafiəsinə yollanır...

Cəsur silahdaşımızın həmkəndlisi və sinif yoldaşı olmuş, Daxili Qoşunların veteranı Nəbi Aslanov (1993-cü il iyun ayının 2-də Ağdamın Boyəhmədli kəndi ətrafında gedən döyüş əməliyyatları zamanı yaralanıb - A.Ə.) hələ orta məktəbdə oxuyarkən Familin vətənpərvər və el-obasına bağlı bir gənc olduğunu deyir: **“Famil həm sinif yoldaşım, həm də yaxın dostum idi. Olduqca mehriban, xoşxasiyyət, eyni zamanda, mərd və qorxubilməz bir insan idi. Heç kimin xətrinə dəyməzdi. Bu baxımdan hamı onun xətrini çox istəyirdi. Familin şəhid olduğunu döyüş bölgəsində olarkən, onunla birgə xidmət etmiş əsgər yoldaşlarından eşitdim. Düzü bu acı xəbəri eşidəndə çox sarsılmışdım. Axı Famil kimi mərd, cəsur bir eloğlumu və eyni zamanda da qardaş kimi yaxın olan əsl dostumu itirmişdim”.**

Beləliklə, 1992-ci ilin yazında Şəki Rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə göndərilən Famil, bir müddət sonra Daxili Qoşunların Gəncə şəhərində yerləşən “N” saylı hərbi hissəsinin “sıravi” hərbi qulluqçusu kimi Vətənə olan müqəddəs borcunu şərəflə yerinə yetirməyə başlayır. Əsgər F.Rəcəbov yüksək intizamı, nümunəvi xidməti, həmçinin, əsl hərbçiyə xas olan möhkəm iradəsi sayəsində qısa bir vaxtda silahdaşlarının hörmət və etibarını qazanmağa müvəffəq olur.

Famil bu hərbi hissənin tərkibində Ağdərə rayonu ərazisindəki bir sıra yaşayış məntəqələrinin və yüksəkliklərin düşməndən azad edilməsi, həmçinin, müdafiəsi uğrunda aparılan bir çox döyüş əməliyyatlarında yaxından iştirak edərək, onlarla erməni yaraqlısını məhv etməklə, məkrli planlarını onların gözündə qoyur.

**24 mart 1993-cü il.** Əsgər F.Rəcəbovun son döyüş günü. Ağdərə şəhəri ətrafında gedən hərbi əməliyyatlar zamanı düşmən mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından gözlərini yuman cəsur silahdaşımız əbədi ölümsüzlüyə - şəhidlik zirvəsinə yüksəlir.

Əsgər F.Rəcəbov doğma Şəki rayonunun Baş Göynük kəndində dəfn olunub. Subay idi.

F.Rəcəbovun döyüşçü dostları onun əsl hərbçiyə xas olan müsbət keyfiyyətlərini bu gün də böyük iftixar hissi ilə xatırlayırlar.

Daxili Qoşunların veteranı, Ucar rayonu, Gəraybəyli kənd sakini Əfqan Ədilov vaxtilə şəhid silahdaşımızla Ağdərə bölgəsində xidmət edərkən birgə çəkdirdikləri fotoşəkli mənə göstərərək, Famillə bağlı xatirələrini bu gün də unutmadığını dedi: **“Şəkildə ön cərgədə, soldan sağa üçüncü gördüyün hərbi qulluqçu Famildir. Onun sağındakı baş geyimsiz döyüşçü isə Göyçay rayonunun Şəkər kəndindən olan və 1994-cü il yanvarın 23-də Füzuli rayonunun Əhmədalılar kəndində şəhid olmuş silahdaşımız Coşqun Nəbiyevdir. Mən isə ayaqüstə, sağdan birinci dayanmışam. Famili çox yaxşı tanıyırdım. Olduqca mehriban, dostluqda və yoldaşlıqda möhkəm, qorxubilməz cəsur döyüşçü idi. Məhz buna görə də bütün yoldaşlarının hörmət və etibarını qazanmışdı Famil”.**



Şəhid F.Rəcəbovun həyat və döyüş yolundan bəhs edən məlumatlara 1998-ci ildə Bakıda “Hüquq ədəbiyyatı” nəşriyyatında çap olunan “Şəki qartalları” adlı kitabda yer alan “Minaatan Famil” başlıqlı məqalədə, həmçinin, Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəsmi internet saytında rast gəlmək olar.

İnanırıq ki, işğal olunmuş qədim yurd yerlərimiz erməni vandallarından tezliklə azad ediləcək və şəhid olmuş Vətən oğullarının əziz ruhu əbədi rahatlıq tapacaqdır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dəfələrlə çıxışlarında qeyd etdiyi kimi: **“Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun mütləq bərpa edəcəkdir”**.

**Allah şəhidlərimizə rəhmət eləsin!**

**kapitan Anar Əhmədov**

*REDAKTORDAN*

# “ƏSGƏR” - ƏSL HƏRBİ-VƏTƏNPƏRVƏRLİK QƏZETİ

Daxili Qoşunların mətbu orqanı olan “Əsgər” hərbi-vətənpərvərlik qəzeti ilə tanışlığım 2005-ci ilin oktyabr ayından başlayıb. İlk dəfə qələmimi sınadığım “Əsgər” qəzeti mənim üçün, bir növ, jurnalistlik məktəbi olub. Bu gün respublikamızda yayımlanan, əsl vətəndaşlıq və vətənpərvərlik ruhu aşılayan 134 kütləvi informasiya vasitəsində – 75 qəzet, 7 jurnal və 52 saytda işıq üzü görən hər bir məqaləmə görə mən “Əsgər”ə minnətdaram.

“Əsgər” qəzetində ilk məqaləm “Azərbaycan uğrunda” başlığı ilə çap olundu. Çünki erməni cəlladları tərəfindən torpaqlarımızın işğal olunduğu və hələ də düşmən tapdağı altında qaldığı, günahsız insanların doğma el-obasından didərgin salındığı, Vətənin qeyrətli oğul və qızlarının şəhid olduğu, eləcə də onların qisasının alınmadığı bir zamanda bizi bu bəlalardan qurtaracaq yeganə amal və əqidə yalnız bu ola bilər. Azərbaycan uğrunda döyüşmək, torpaqlarımızı azad etmək, lazım gələrsə, onun naminə şəhidlik zirvəsinə yüksəlmək həm də hər bir zabit, gizir, çavuş və əsgərin müqəddəs andıdır.

Respublikamızın ərazi bütövlüyü uğrunda aparılan döyüşlər zamanı Daxili Qoşunların yüzlərlə hərbi qulluqçusu şəhid olub, itkin düşüb və yaralanıbdır. “Əsgər” qəzetinin “Şəhidlərimiz” rubrikası Vətən uğrunda son damla qanınadək vuruşaraq şəhid olan qəhrəman hərbi qulluqçularımızın həyat və döyüş yoluna işıq salır. Şəhidlərimiz haqqında yazılan məqalələr bugünkü gənc nəslin hərbi-vətənpərvərlik ruhunun yüksəldilməsinə xidmət etməklə yanaşı, həm də düşmənə olan nifrət və intiqam hissimizi daha da alovlandırır. Həmçinin, belə məqalələr nə qədər qəlbimizi göynətsə belə, Vətənimizin igid oğulları ilə hər birimiz fəxr edir və qürur duyuruq. Axı torpağı Vətən edən məhz axıdılan şəhid qanlarıdır. Bu rubrikanı təkcə “Əsgər” qəzetində deyil, ölkəmizin digər kütləvi informasiya vasitələrində də davam etdirməyi, Azərbaycanın şəhid olmuş mərd, igid oğullarını gənc nəslə tanıtmağı artıq qarşıma bir məqsəd olaraq qoymuşam.

Onu da qeyd edə bilərəm ki, “Əsgər” qəzetinin arxivi gələcəkdə tarixçilər üçün Azərbaycan hərb tarixinin XX əsrin sonu – XXI əsrin əvvəllərini əhatə edən bir dövrünü öyrənmək baxımından çox qiymətli mənbədir.

Bundan əlavə, 2014-cü ilin may ayından etibarən fəaliyyət göstərən Daxili Qoşunların rəsmi internet səhifəsində “Əsgər” qəzetinin saylarının elektron variantı da yerləşdirilir. Bu, qəzet üçün daha geniş oxucu kütləsinə çıxış imkanı əldə etmək deməkdir. Həmçinin, qəzetin elektron arxivinin yaradılması da əhəmiyyətli addımdır.



**Redaksiyanın öz fəaliyyətində müasir texnoloji imkanlardan bəhrələnməsi üçün yaradılan şəraitə görə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədova dərin minnətdarlığımızı bildiririk. Daxili Qoşunların Komandanının dəyərli məsləhətləri və qarşımıza qoyduğu müvafiq tapşırıqlar fəaliyyətimizin daha da təkmilləşdirilməsinə uğurlu zəmin yaradır.**

Bu gün Azərbaycan əsgərini vətənpərvərliyə, düşmən üzərində qələbəyə səsləyən, eləcə də Daxili Qoşunların tarixini yazan bir qəzetin redaktoru olmağımla yalnız fəxr edirəm.

**26 illiyini qeyd edən “Əsgər” qəzetinə xalqımıza ilk olaraq ordumuzun erməni faşistləri üzərində qələbə müjdəsini çatdırmağı arzulayıram.**

# TARİX YAZAN VƏ HƏRBİ JURNALİSTİKAMIZIN İNKİŞAFINA LAYİQLİ TÖHFƏLƏR VERƏN QƏZET...

## *26 ildir ki, “Əsgər”i oxuyur və qəzetə məqalələr yazıram*

Daxili Qoşunların “Əsgər” qəzeti 26 ildir ki, çap olunur və ötən dövrdə öz səhifələrində şərəfli bir tarixi əks etdirib. Bu şərəfli tarix Daxili Qoşunların formalaşması və inkişafı salnaməsidir. Həqiqətən də Daxili Qoşunların keçdiyi yolun demək olar ki, bütün mühüm məqamları qəzetdə dolğun işıqlandırılıb. Qəzet, əslində, dəyərli bir tarixi mənbədir və tədqiqatçılar üçün onun işıq üzü görmüş sayları zəngin informasiya qaynağıdır.

“Əsgər” qəzeti respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərin getdiyi dövrdə yarandı və müharibə zamanının mətbuat orqanı kimi öz missiyasını uğurla yerinə yetirdi. Qəzetin adı da uğurlu və məntiqli bir seçim olaraq, milli söz xəzinəmizdə böyük məna kəsb edən, həmişə Vətən, dövlət, xalq məfhumu ilə bütövləşən mənəvi ucalığı vurğulayır, qeyrət, ləyaqət və fədakarlığı aşılayır. Müharibənin qanlı-qadalı günlərində “Əsgər” odlu səngərlərdə dayanan cəsur oğullara da çatdırılır, hər bir döyüşçüyə mənəvi ruh verirdi. O ölümlü-itimli anlarda döyüşçülərin əzmkarlığına, döyüş ruhunun güclənməsinə, vətənpərvərlik əqidəsinin sarsılmaz olmasına qəzetin özünəməxsus təsiri vardı. Xeyli şəhid və yaralanmış hərbi qulluqçularımız barədə ilk məqalələr məhz “Əsgər”də dərc olunub. Unikal ön cəbhə fotolarını Daxili Qoşunların Baş İdarəsində sabiq klub rəisi, veteran, ehtiyatda olan mayor Famil Nəsibov və “Əsgər”in hərbi müxbirləri çəkiblər. Fədakar hərbi jurnalistlər Vahid Məhərrəmli, Mərdan Hüseynli (hazırda ehtiyatdadırlar, jurnalistika sahəsində fəaliyyətlərini davam etdirirlər) və İlham Babayev (hazırda DİN-in mətbuat xidmətində işləyir) təhlükələrə, əziyyətlərə, müəyyən məhdudiyyətlərə baxmayaraq, ön cəbhənin bütün istiqamətlərində olub, redaksiyaya neçə-neçə bloknot vərəqinə yazılan çox vacib qeydlər, diktafon lentinə köçürülən maraqlı müsahibələr, müharibə gerçəkliklərini əks etdirən nadir şəkillərlə qayıdıblar. Beləliklə, döyüş yolumuz haqqında oxunaqlı, dolğun məzmunlu, diqqətəlayiq faktları əks etdirən jurnalist yazıları ərsəyə gəlib. Həmin jurnalistlərlə ön cəbhədə bir neçə dəfə görüşmüşəm və orada yazdığım məqalələri onlar vasitəsilə redaksiyaya göndərmişəm. “Əsgər”ə ilk yazılarımı göndərəndə əsgər hərbi rütbəsində idim. Sonradan hərbi rütbələr artdı, xidmət yerlərim dəyişdi, ancaq qəzetə bağlılığım daha da möhkəmləndi. 26 ildir ki, qəzetin sadiq oxucusuyam və qəzetdə məqalələrim dərc olunur.

1996-2007-ci illərdə isə “Əsgər” qəzeti redaksiyasında müxtəlif vəzifələrdə xidmət etmişəm. Həmin illər mənim jurnalistikada fəaliyyətim baxımından bir məktəb idi. Əməkdar jurnalist, Daxili Qoşunların mətbuat xidmətinin sabiq rəisi, “Əsgər” qəzetinin formalaşması və inkişafında təqdirəlayiq əməyi olmuş Təranə Məmmədovanın rəhbərliyi altında xidmət etdiyim dövrü həmişə minnətdarlıqla xatırlayıram. T.Məmmədovanın dəyərli məsləhətləri, onun dərin məzmunlu yaradıcılığı jurnalistika peşəsinin sirlərinə yiyələnməyimə kömək olub, qələm adamı kimi bu sahədə ruh yüksəkliyi ilə çalışmağıma təkan verib.




Onu da bu yazıda xüsusi xatırlatmağı vacib hesab edirəm ki, T.Məmmədova Daxili Qoşunların şəhid hərbi qulluqçuları haqqında ilk kitabın müəllifidir. “Oğullar verir ki, can, yaşasın Azərbaycan” adlandırılan, 1999-cu ildə işıq üzü görən həmin kitabın hazırlanmasında “Əsgər” qəzeti redaksiyasının o vaxtkı kollektivinin zəhməti danılmazdır. Ötən illərdə Daxili Qoşunların mətbuat xidməti tərəfindən qoşunların xidməti-döyüş fəaliyyətini dolğun əks etdirən xüsusi nəşrlər hazırlanaraq, ayrı-ayrı nəşriyyatlarda çap edilib. Bu nəşrlərin hazırlanması prosesində “Əsgər” qəzetinin arxivinə istinad olunub.

Döyüşçü-şair, çoxsaylı bədii kitabın müəllifi, respublika veteran hərəkatının fəallarından biri, ehtiyatda olan mayor Elxan Xəzər də vaxtilə “Əsgər” qəzetinin redaktoru olub. Onun Daxili Qoşunların hərbi qulluqçularının qəhrəmanlığını vəsf edən bir sıra poema və şeirləri “Əsgər” qəzetində dərc edilib. İstedadlı ədibin bədii yaradıcılığının təbliğ olunmasında “Əsgər” qəzeti də az rol oynamayıb.

“Əsgər”in arxivi ilə tanış olarkən həm də ölkəmizdə hərbi jurnalistikanın keçdiyi inkişaf mərhələlərinin xüsusiyyətlərini təhlil etmək olar. Hərbi jurnalistikamızın dili, üslubu, yaradıcı dəst-xəttinin inkişafına, işıqlandırdığı mövzu dairəsinin genişlənməsinə “Əsgər” qəzeti də nəzərəçarpan töhfələr verib.

Qəzet hərbi ənənələrin, mənəvi dəyərlərimizin, tarixi irsimizin təbliğində, hərbi-vətənpərvərlik tərbiyəsi işində, gənclərin hərbi xidmətə həvəsləndirilməsində, şəxsi heyətə hərbi xidmətlə bağlı müsbət keyfiyyətlərin aşılanmasında, istedadlı hərbi qulluqçularımızın yaradıcılığının işıqlandırılmasında və bütövlükdə, öz oxucularının maariflənməsində əvəzsiz rol oynayır.

Daxili Qoşunların Veteranlar Şurası ilə “Əsgər” qəzeti redaksiyası arasında şəxsi heyətin hərbi-vətənpərvərlik tərbiyəsi istiqamətində əməkdaşlıq da illərin sınağından keçmiş müsbət bir təcrübədir. Veteran məsləhəti və nəsihətinə qəzetdə yer verilməsi, onların həyat yolunun işıqlandırılması şəxsi heyətin mənəvi tərbiyəsində vacib amildir. Veteranlar Şurasının keçirdiyi tədbirlər barədə qoşunların şəxsi heyəti və ictimaiyyət qəzet vasitəsilə mütəmadi olaraq məlumatlandırılır. Bu addımlar, bütövlükdə, qoşunların veteranlarının fəaliyyətinə informasiya dəstəyinin verilməsi deməkdir.

**“Əsgər” qəzeti redaksiyasının yaradıcı fəaliyyətinə, maddi-texniki təminatının təşkilinə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun göstərdiyi diqqət və qayğı olduqca vacib dəstəkdir, peşə yönümündə təkmilləşməyə, püxtələşməyə, daha böyük əzmlə çalışmağa dayanıqlı stimuldur.**

“Əsgər” tarix yazmış bir qəzetdir və qoşunların həyatında bundan sonra da öz missiyasını şərəflə yerinə yetirəcəkdir.

**Yalçın Abbasov**

4_Layout 1 13.12.2018 18:00 Page 1



NÜMUNƏVİ XİDMƏT

# KOMANDİR ƏZMKARLIĞI VACİB KEYFİYYƏTDİR

Daxili Qoşunların 17072 saylı hərbi hissəsinin nümunəvi hərbi qulluqçularından olan baş leytenant Elçin Həmidov 1986-cı il iyulun 30-da Rusiya Federasiyasının Novosibirsk şəhərində anadan olub.

Orta təhsilini Bakı şəhərindəki 4 saylı məktəbdə alıb. 2005-ci ildə orta məktəbi bitirdikdən sonra müddətli həqiqi hərbi xidmətini Daxili Qoşunların 12565 saylı hərbi hissəsində keçib. 2007-ci ilin aprel ayından müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Daxili Qoşunların 99713 saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində yarımqrup komandiri vəzifəsində xidmət edib. Uşaq yaşlarından idmanın güləş növü ilə məşğul olan hərbi qulluqçumuz Daxili Qoşunların birinciliyi uğrunda keçirilən yarışlarda da hər zaman fərqlənənlərdən olub.

2012-2014-cü illərdə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbində hərbi peşənin sirlərinə yiyələnib. Həmçinin, 2008-ci ildə Türkiyə Respublikasında 4 aylıq "kəskin nişançı", 2015-2016-cı illərdə isə "jandarma subay təməl" kurslarını fərqlənmə ilə bitirib. Hazırda 17072 saylı hərbi hissədə komendant bölüyünün komandiri vəzifəsində xidmətini davam etdirir.



Hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. Ona göstərilən etimadı hər zaman doğrultmağa çalışan hərbi qulluqçumuz tabeliyindəki şəxsi heyətin döyüş və ictimai-siyasi hazırlığının, təlim-tərbiyəsinin, hərbi intizamının, mənəvi-psixoloji durumunun yüksəldilməsi üçün öz bilik və bacarığını əsirgəmir. Onların şəxsi keyfiyyətlərini nəzərə alaraq, hərbi nizamnamələrin tələblərinə, hərbi intizama sözsüz əməl etmələrinə, həmçinin, zahiri görkəminə və geyim qaydalarının daşınmasına daima diqqət yetirir.

Xidmətin məsuliyyətindən danışan bölük komandiri bildirdi ki, şəxsi heyətin döyüş hazırlığı qədər, nizam-intizamın möhkəmləndirilməsi, təlim prosesinin keyfiyyətli təşkili və sağlamlıqlarının qorunması vacibdir. Bunun üçün hər gün xidmətə cəlb olunan hərbi qulluqçularla məşğələlər keçirilir, silahların istifadəsi, sökülüb-yığılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunması, eləcə də onların sağlamlığı nəzarətdə saxlanılır.

Baş leytenant E.Həmidov hərbi qulluqçuların istirahəti və asudə vaxtlarının səmərəli təşkil olunması barədə də məlumat verdi. Söylədi ki, hərbi hissədə şəxsi heyətin müxtəlif mətbu orqanları, kitabları mütaliə etməsi, stolüstü oyunlar oynaması və qulaqcıqlar vasitəsilə radioya qulaq asması üçün əlverişli şərait yaradılıb.

Komendant bölüyündə xidmət etməkdən qürur duyduğunu bildirən baş leytenant E.Həmidov bundan sonra da hissə komandanlığının ona olan etimadını doğruldacağına, qarşıya qoyulan tapşırıqların məsuliyyətini dərindən dərk edərək, hər zaman əzmkarlıq göstərəcəklərinə söz verdi.

**17072 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

## HƏRBİ XƏBƏRLƏR

-YENİLİKLƏR-

### Almaniya korvetlərini yeni dəniz silah sistemləri ilə təchiz edəcək

Almaniya donanması silahlanmasına yeni əlavə etdiyi K130 korvetlərini OTO 76/62 "Super sürət" silah sistemləri ilə təchiz edəcək. Ordu.az xarici KİV-lərə istinadən xəbər verir ki, bu




məsələ ilə bağlı "Leonardo" kompaniyası ilə müqavilə imzalanıb. Müqaviləyə əsasən, firma Almaniya donanmasına istənilən növ və sinfə məxsus gəmiyə əlavə edilməsi mümkün olan 7 ədəd OTO 76/62 çatdıracaq.

### Rusiya silahlanmasına lazer sistemləri daxil olub

Rusiyanın yerli istehsalı olan "Peresvet" döyüş lazerləri işə salınacaq. Ordu.az TASS agentliyinə istinadən xəbər verir ki, bu barədə Rusiya Müdafiə Nazirliyinin rəsmi qəzetində bildirilib. Məlumata görə, lazer sistemləri 2017-ci ildən bəri sınaqdan keçirilir. İndi isə hərbi heyət onların işə salınması və istifadəsi



ilə bağlı bacarıqlarını artırıb. Qısa müddətdə lazer silahların işə düşəcəyi gözlənilir.

### Latviya "Stinger" havadan müdafiə sistemlərini əldə edib

Latviya Danimarkadan "Stinger" havadan müdafiə sistemlərini Milli Silahlı Qüvvələri (NAF) tərəfindən istifadə etmək üçün qəbul edib. Ordu.az xəbər verir ki, "Stinger" raketləri 2017-ci ildə Latviya və Danimarka müdafiə nazirlikləri arasında imzalanan ikitərəfli razılaşma əsasında Latviya ordusuna təhvil verilib.



*Metodiki vəsait*

# YOL-NƏQLİYYAT HADİSƏLƏRİ, ONLARIN SƏBƏBLƏRİ VƏ NƏTİCƏLƏRİNİN TƏSNİFATI

Müasir dövrün ən vacib problemlərindən biri istismarda olan avtomobil yollarında hərəkətin təhlükəsizliyinin təmin edilməsidir. Dünyanın küçə və yollarında son on illər ərzində baş vermiş yol-nəqliyyat hadisələri (YNH) üzrə statistik analiz də bu problemin həlli vacibliyini bir daha təsdiq edir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarına əsasən, hər il dünyada YNH nəticəsində 10 milyondan çox insan dünyasını dəyişir və yaralanır, onların vurduğu maddi ziyan isə təxminən 500 milyard dollar təşkil edir. Dünyanın bütün ölkələrində yol-nəqliyyat hadisələrinin sayının azaldılması milli problem səviyyəsinə qalxıb.



Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 2012-ci il tarixli "Yol-nəqliyyat hadisələri ilə əlaqədar təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və yol hərəkətinin tənzimlənməsi sahəsində idarəetmənin şəffaflığının artırılması ilə bağlı tədbirlər haqqında" Sərəncamında qeyd edilir ki, "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi ölkənin avtomobil yolları şəbəkəsinin və yol infrastrukturunun bərpasına və yenidən qurulmasına güclü təkan vermiş, yeni avtomobil yollarının salınması, nəqliyyat qovşaqlarının və körpülərin tikintisi geniş vüsət almışdır. Yol hərəkətini tənzimləyən qanunvericiliyin müddəalarının pozulmasına görə məsuliyyət tədbirləri sərtləşdirilmiş, bu sahədə sui-istifadə hallarına qarşı ciddi tədbirlər görülmüş, yol patrul xidməti əməkdaşlarının sosial müdafiəsi gücləndirilmişdir. Görülən tədbirlər ölkə ərazisində yol hərəkətinin fasiləsiz və təhlükəsiz təmin edilməsində mühüm əhəmiyyət kəsb etmişdir.

Buna baxmayaraq, son zamanlar sürücülərin təhlükəsizlik tələblərini pozmaqla, o cümlədən, sərxoş halda, sürət həddini aşmaqla nəqliyyat vasitələrini idarə etməsi ilə əlaqədar ağır nəticələrə səbəb olan yol-nəqliyyat hadisələrinin sayı artmışdır".

Yol-nəqliyyat hadisələrinin baş verməsinə qarşı yol-hərəkət şəraitinin yaxşılaşdırılması istiqamətində aparılan tədbirlər kompleks xarakter daşımaqla, onların sırasına yolların texniki vəziyyətinin və hərəkəti tənzimləyən vasitələrin təkmilləşdirilməsi, sürücü peşəkarlığının artırılması və intizamının möhkəmləndirilməsi aid edilir.

"Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, yol-nəqliyyat hadisəsi yollarda, küçələrdə, meydanlarda, dəmiryol keçidlərində nəqliyyat vasitələrinin hərəkəti prosesində baş verən və adamların ölməsinə və ya müxtəlif dərəcəli bədən xəsarəti almasına, heyvanların və ya hərəkətsiz maneənin vurulmasına, nəq-




liyyat vasitələrinin, yolların, qurğuların zədələnməsinə və ya başqa maddi zərər dəyməsinə səbəb olan hadisədir.

Bununla yanaşı, müxtəlif elmi ədəbiyyatlara əsasən, nəqliyyat vasitəsinin normal hərəkət rejiminin pozulması nəticəsində yaranan və insanların ölümü, xəsarəti, nəqliyyat vasitəsinin və yükün, süni qurğuların zədələnməsi, yaxud başqa maddi ziyan yetirilən vəziyyətlər yol-nəqliyyat hadisəsidir.

Baş vermiş hadisənin yol-nəqliyyat hadisəsi olub-olmamasının araşdırılması bir sıra hallarda o qədər də asan olmur. Bunun üçün yol-nəqliyyat hadisəsinin tərifinin özünü araşdırdıqda məlum olur ki, aşağıdakı hallarda baş vermiş hadisəni yol-nəqliyyat hadisəsi hesab etmək olmaz:

- baş vermiş hadisədə nəqliyyat vasitəsi iştirak etməyib;
- baş vermiş hadisədə nəqliyyat vasitəsi statik vəziyyətdə olub (dayanıb);
- nə nəqliyyat vasitəsinə, nə də yol hərəkətinin digər iştirakçılarına zərər dəyməyib.

Əksinə, aşağıdakılardan biri baş verərsə, hadisəni yol-nəqliyyat hadisəsi hesab etmək olar:

1. Yol-nəqliyyat hadisəsi yalnız nəqliyyat vasitəsi hərəkətdə olduqda baş verə bilir;
2. Yol-nəqliyyat hadisəsi yalnız nəqliyyat vasitəsi yolda hərəkətdə olduqda baş verə bilir;
3. Yol-nəqliyyat hadisəsi zamanı insanların həyatına, sağlamlığına zərər yetirilir və ya onlara maddi ziyan vurulur.

"Yol hərəkətinə YHQ-də verilmiş anlayışda "xüsusi nəzərdə tutulmuş yollarda" ifadəsinin işlədilməsi o anlamı verir ki, yol kimi nəzərdə tutulmayan yerlərdə (məsələn, çöllükdə, tarlada, müxtəlif obyektlərə aid qapalı ərazilərdə və s.) nəqliyyat vasitəsi ilə hərəkət zamanı yaranan münasibətlərin yol hərəkətinə aidiyyəti yoxdur".

Yol-nəqliyyat hadisələrinin səbəbləri obyektiv və subyektiv səbəblərə bölünür.

Yol-nəqliyyat hadisələrinin subyektiv səbəblərinə aşağıdakılar aid edilir:

- yol hərəkəti qaydalarının sürücü, piyada, sərnişin, yol hərəkətinin digər iştirakçısı tərəfindən pozulması;
- nəqliyyat vasitəsinin hərəkətinin və istismarının təhlükəsizlik qaydalarının pozulması.

Yol-nəqliyyat hadisələrinin obyektiv səbəbləri isə aşağıdakılardır:

- küçə və avtomobil yollarının planlaşdırılmasında olan çatışmazlıqlar;
- günün qaranlıq vaxtında yolun hərəkət hissəsinin işıqlandırılmaması;
- yol örtüyünün vəziyyəti;
- müxtəlif tənzimləmə vasitələri (o cümlədən yol nişanları);
- nəqliyyat vasitəsinin tormozlama, manevr və digər xüsusiyyətləri.

Yol-nəqliyyat hadisələrinin sürücüdən asılı olan səbəbləri aşağıdakılardır:

- müəyyən olunmuş sürət həddinin aşılması;
- ara məsafəsinə, həmçinin, hərəkətin təhlükəsizliyinin təmin edilməsi üçün zəruri olan yan intervalın saxlanılmasına riayət olunmaması;
- nəqliyyat vasitəsinin sərxoş vəziyyətdə idarə olunması;
- ötmə qaydalarının pozulması;
- yolvermə zamanı növbəliyə riayət olunmaması;
- manevr qaydalarına riayət olunmaması;
- digər səbəblər - kəskin tormozlama, manevr zamanı xarici işıqlardan istifadə olunmaması, qadağanedici işarələrə məhəl qoyulmaması, sükan arxasında yuxulama və s.

**(davamı gələn sayımızda)**

**DQBİ-nin Avtomobil və zirehli texnika şöbəsi**

# NƏQLİYYAT VASİTƏLƏRİNİN TEXNİKİ HAZIRLIĞI QƏNAƏTBƏXŞ QİYMƏTLƏNDİRİLİB

"2018-ci ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planı"na, "Daxili Qoşunlarda avtomobil xidmətinin təşkilinə dair Təlimat"ın tələblərinə əsasən, Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının əmrilə oktyabrın 3-dən noyabrın 7-dək Ali Hərbi Məktəbdə və hərbi hissələrdə nəqliyyat vasitələrinə illik texniki baxış keçirilib.



Baxış zamanı avtomobil və zirehli texnikanın vəziyyəti, onların düzgün istismarı, parklarda daxili xidmətin təşkili, yol-nəqliyyat hadisələrinin qarşısını almaq məqsədilə keçirilən tədbirlər, bu sahəyə cavabdeh vəzifəli şəxslərin və mütəxəssislərin ixtisas hazırlığı, müvafiq əmlakların, yanacaq-sürtkü materiallarının hesabatı, qorunub-saxlanması, istifadə olunması yoxlanılıb və qiymətləndirilib.

Həmçinin, texniki baxış zamanı Dövlət Yol Polisi əməkdaşlarının iştirakı ilə Ali Hərbi Məktəbin və hərbi hissələrin hərbi qulluqçularının fərdi nəqliyyat vasitələrinə texniki baxışların, "Yol hərəkəti iştirakçılarının əsas vəzifələri və hüquqları, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi" mövzusunda məşğələlər keçirilib.

Texniki baxışa Ali Hərbi Məktəbin və hərbi hissələrin qeydiyyatında olan bütün nəqliyyat vasitələri təqdim olunub.

Parklarda daxili qayda-qanunun təşkil edilməsi, xidmətin aparılması, yanğına qarşı tədbirlərin həyata keçirilməsi, maşınların parkdan çıxması və qayıtması qaydalarına riayət edilməsi, həmçinin, nəqliyyat vasitələrinin hərəkətinə və müəyyən olunmuş vaxtda hərbi hissələrə qayıtmalarına ciddi nəzarət olunması aidiyyəti üzrə vəzifəli şəxslərin diqqətinə çatdırılıb.

İllik baxışın nəticələrindən müəyyən edilib ki, nəqliyyat vasitələrinə texniki xidmət və təmir işlərinin aparılması, onların illik texniki baxışa hazırlığı 12565, 99713, 17071 və 17072 saylı hərbi hissələrdə yüksək səviyyədə təşkil olunub.

Hərbi hissələrdə nəqliyyat vasitələrinə texniki xidmət və təmir işlərinin aparılmasında, onların illik texniki baxışa hazırlanmasında yüksək peşəkarlıq göstərdiklərinə, xidməti-vəzifə borclarının icrasına layiqincə yanaşdıqlarına görə bir qrup hərbi qulluqçu Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının əmrilə mükafatlandırılıb.

Ümumilikdə, qoşunlar üzrə nəqliyyat vasitələrinin texniki hazırlığı qənaətbəxş qiymətləndirilib.

**baş leytenant Xədicə Hacızadə**

## Allah rəhmət eləsin

Daxili Qoşunların Komandanlığı polkovnik Namiq Abdullayevə **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Komandanlığı baş leytenant Muxtar Əhmədova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Veteranlar Şurası qoşunların veteranı **ehtiyatda olan baş gizir Cəlil Ələkbərovun** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

16077 saylı hərbi hissənin komandanlığı gizir Leyla Əliyevaya **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16077 saylı hərbi hissənin komandanlığı baş çavuş Nazim Tağıyevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
**Redaktor: Anar Əhmədov**

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
**Əlaqə telefonları: 560-22-63**

**Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**